E-1486

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər–S.M.Rəsulova, F.İ.Məmmədov

etiraz ərizəsini verən iddiaçı "Colgate-Palmolive Company, a Delaware corporation (USA) */(ünvan: 300 Park Avenue, New York, New York 10022, USA)* nümayəndəsi patent müvəkkili T.A.Yaqubovanın iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

05.01.2018 il tarixdə "Colgate-Palmolive Company, a Delaware corporation (USA)" şirkətinə" *(ünvan: 300 Park Avenue, New York, New York 10022, USA)* aid "ДРЕВНИЕ СЕКРЕТЫ" adlı əmtəə nişanının (2017 33466 saylı iddia sənədi) 21-ci sinfin *"diş fırçaları"* əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 03.11.2017 il tarixli qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, 07.12.2016-cı il tarixində "Patent və əmtəə nişanları mərkəzinə" "Colgate- Palmolive Company, a Delaware corporation" adına "ДРЕВНИЕ СЕКРЕТЫ" əmtəə nişanına dair № 2017 33466 saylı iddia sənədi qeydiyyata verilmişdir. "ДРЕВНИЕ СЕКРЕТЫ" əmtəə nişanı 21-ci sinif əmtəələri barəsində iddia edilmişdir: "*diş fırçaları".* Bildirilmiş əmtəə nişanı iki "ДРЕВНИЕ" və "СЕКРЕТЫ" sözlərdən ibarət söz birləşməsini ifadə edir. 03.11.2017-ci il tarixində ekspertiza "ДРЕВНИЕ СЕКРЕТЫ" əmtəə nişanını qeydiyyata almaq barədə qərar vermişdir. Qərarda qeyd edilmişdir ki, əmtəə nişanında söz birləşməsi elementlərinə hüquqi mühafizə verilmədən bütövlükdə qorunur. İddiaçı ekspertizanın "ДРЕВНИЕ" və "СЕКРЕТЫ" sözlərinə hüquqi mühafizə

verilməməsindən imtina qərarı ilə razı deyil. Bildirilmiş nişan iddiaçı tərəfindən öz məhsullarının markalanması üçün istifadə olunan vahid və ayrılmaz söz birləşməsidir. İstehlakçılar bu nişanı məhz söz birləşməsi şəklində qəbul etdiyinə görə ekspertiza nişanın tərkibinə daxil olan sözləri ayrı-ayrılıqda baxmaq və onları disklamasiya etmək əsaslarına malik deyildir. Hal-hazırda bildirilmiş nişan əmtəə nişanı kimi Özbəkistanda və Qazaxıstanda qeydiyyata alınmışdır. "ДРЕВНИЕ СЕКРЕТЫ" əmtəə nişanına Özbəkistanda şəhadətnamə No.MGU 32573 verilmişdir. Nişan 07.03.2017-ci il tarixində 21-ci sinif əmtəələri - *diş fırçaları* barəsində qeydə alınmışdır. "ДРЕВНИЕ СЕКРЕТЫ" əmtəə nişanına Qazaxıstanda ekspertin rəyi No.38581 verilmişdir. Nişan 07.03.2017-ci il tarixində 21-ci sinif əmtəələri - *diş firçaları* barəsində qeydə alınmışdır. Əlavə olunmuş şəhadətnamələrdən göründüyü kimi qərarın verildiyi zaman qeydə alınmış söz birləşməsinin tərkibində olan ayrı sözlərə disklamasiya verilməmişdir. "ДРЕВНИЕ СЕКРЕТЫ " əmtəə nişanı digər ölkələrdə də qeydiyyata verilmişdir. Yuxarıda şərh olunanları nəzərə alaraq və Azərbaycan Respublikası "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununun 15 Maddəsini rəhbər tutaraq Colgate - Palmolive Company, a Delaware corporation adına 2017 33466 №-li iddia sənədi olan "ДРЕВНИЕ СЕКРЕТЫ" əmtəə nişanının tərkibində olan sözlərin disklamasiyası haqqında ekspertizanın qeydini yenidən baxaraq və həmin nişanı onun ayrı-ayrı elementlərinə hüquqi mühafizə verilməklə qeydiyyata alınması haqqında qərar verilməsini Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubovanın çıxışını dinləyib, hesab etdi ki, iddia təmin edilməlidir.

Apellyasiya şurası müəyyən etdi ki, "ДРЕВНИЕ СЕКРЕТЫ" adlı əmtəə nişanının 21-ci sinif əmtəələri üzrə qeydiyyata alınmasına dair 16.02.2017 il tarixində 2017 33466 nömrəli iddia sənədi "Colgate-Palmolive Company, a Delaware corporation" şirkəti tərəfindən patent müvəkkili vasitəsilə Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzinə (AzPatent) verilmişdir.

"ДРЕВНИЕ СЕКРЕТЫ" adlı əmtəə nişanının qeydiyyata alınması haqqında qərar 03.11.2017 tarixində verilmişdir. Həmin qərarın (526) nömrəli kodun altında xüsusi qeydində göstərilmişdir ki, "Əmtəə nişanındakı "ДРЕВНИЕ СЕКРЕТЫ" söz birləşməsi elementlərinə ayrı-ayrılıqda müstəqil hüquqi mühafizə verilmədən bütövlükdə qorunur".

İddiaçı qərarın (526) nömrəli kodun altında xüsusi qeydi ilə razı olmamışdır. İddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova Apellyasiya şurasına etiraz ərizəsini vermişdir.

Apellyasiya şurası müəyyən etdi ki, Ekspertiza "ДРЕВНИЕ СЕКРЕТЫ" adlı əmtəə nişanının (2017 33466 nömrəli iddia sənədi) qeydiyyata alınması barədə qərar verən zaman, qərarın (526) nömrəli kodun altında xüsusi qeydi aşağıdaki redaksiyada vermişdir: *"Əmtəə nişanındakı* "ДРЕВНИЕ СЕКРЕТЫ" *söz birləşməsi elementlərinə ayrı-ayrılıqda müstəqil hüquqi mühafizə verilmədən bütövlükdə qorunur"*.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsində göstərilmişdir ki, ekspertizaların nəticələrinə əsasən əmtəə nişanını və ya coğrafi göstəricinin qeydə alınmasına və ya qeydə almaqdan imtina edilməsinə dair əsaslandırılmış qərar qəbul edilir.

İddiaçı "ДРЕВНИЕ СЕКРЕТЫ" əmtəə nişanının qeydiyyata alınmasına dair iddia sənədi (2017 33466) verən zaman ərizədə disklamasiya barədə heç bir qeyd etməmişdir. Belə olan halda ekspertiza qərarı müsbət olsa belə, qərarın verilməsindən əvvəl disklamasiya ilə bağlı iddiaçıya bildiriş göndərməli və ona, ekspertizanın nəticəsi barədə bildiriş ilə tanış olaraq cavab vermək (lazım olanda) imkanı yaratmalıdır, çünki ekspertizanın nəticəsi iddiaçının hüquqlarını məhdudlaşdırır. Həmçinin "ДРЕВНИЕ СЕКРЕТЫ" əmtəə nişanına dair disklamasiya ilə bağlı ekspertiza qərarı əsaslandırılmamış və iddiaçıya bu barədə bildiriş göndərməmişdir. Bu isə bilavasitə iddiaçının hüquqlarının məhdudlaşdırılması deməkdir.

Apellyasiya şurası hesab edir ki, "ДРЕВНИЕ СЕКРЕТЫ" adlı əmtəə nişanı (2017 33466 nömrəli iddia sənədi) üzrə 21-ci sinifin əmtəələri *"diş firçaları"* üzrə "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrinin müddəalarına uyğundur və Azərbaycan Respublikasında disklamasiyasız qeydiyyata alınmalıdır.

Şərh edilənlərə əsasən, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrinin müddəalarını rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı

1. "ДРЕВНИЕ СЕКРЕТЫ" adlı əmtəə nişanının (2017 33466 saylı iddia sənədi) 21-ci sinifin *"diş firçaları"* əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 03.11.2017 il tarixli qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova tərəfindən Apellyasiya şurasına verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və iddia təmin edilsin.

2. "ДРЕВНИЕ СЕКРЕТЫ" adlı əmtəə nişanının (2017 33466 saylı iddia sənədi) 21-ci sinifin *"diş firçaları"* əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 03.11.2017 il tarixli qərarında (526) nömrəli kodun altında xüsusi qeyd "Əmtəə nişanındakı "ДРЕВНИЕ СЕКРЕТЫ" söz birləşməsi elementlərinə ayrı-ayrılıqda müstəqil hüquqi mühafizə verilmədən bütövlükdə qorunur" etibarsız sayılsın.

3. Həmin Qərarın 1-ci, 2-ci bəndlərində göstərilənləri nəzərə alaraq, Əmtəə nişanlari Dövlət reyestrində "ДРЕВНИЕ СЕКРЕТЫ" adlı əmtəə nişanı (2017 33466 saylı iddia sənədi) 21-ci sinifin *"diş firçaları"* əmtəələri üzrə qeydiyyata alınsın.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: F.İ.Məmmədov

S.M.Rəsulova